# Özbək qonaqlar Yazıçılar Birliyini ziyarət ediblər



Özbəkistanın tanınmış politoloqu Qüdrətqulu Rəfiqovun müəllifi olduğu "Şavkat Mirziyoyev fenomeni" kitabı ölkəmizdə çap edilib. Kitabı dilmizə Azərbaycan Yazıçılar Birliyinin üzvü Akif Azalp (Bağırov) uyunlaşdırıb. Dekabrın 18-də Azərbaycan Milli Kitabxanasında "Şavkat Mirziyoyev fenomeni" kitabının geniş təqdimat mərasimi keçirilib. Azərbaycan Yazıçılar Birliyinin dəvəti ilə Özbəkistanın tanınmış qələm adamları təqdimatda iştirak ediblər.

Həmin gün özbək qonaqlar Azərbaycan Yazıçılar Birliyini də ziyarət ediblər. Qonaqlar Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarla görüşüblər. Qonaqları salmalayan Xalq yazıçısı Anar Azərbaycan Yazıçılar Birliyinin tarixi, fəaliyyəti ilə bağlı ətraflı məlumat verib. Görüşdə qardaş Özbəkistan Respublikası ilə ədəbi əlqalər müzakirə edilib və münasibətlərin inkişafı üşün müxtəlif layihələr barəsində fikir mübadiləsi aparılıb. Özbəkistan Jurnalistlər Birliyinin sədri Xalmurad Səlimov Azərbaycan Yazıçılar Birliyini sədri Anara Jurnalistlər Birliyinin hədiyyələrini təqdim edib. "Vətən" jurnalının baş redaktoru Husan Ermatov, Özbəkistanın Xalq şairi Mahmud Toir, Özbəkistan Yazıçılar Birliyinin katibi Qayrat Məcid, Özbəkistanın əməkdar jurnalisti, yazıçı Xurşid Dostmuhammad, Özbəkistan Yazıçılar Birlyinin üzvü, şair Şöhrət Arif və başqaları Azərbaycan Yazıçılar Birlıiyinin sədrinə dəvət və qonaqpərvərlik üçün təşəkkürlərini bildirərək, ölkəmizdə olmaqdan məmnunluqlarını ifadə ediblər.

Qeyd edək ki, "Təhsil" nəşriyyatında çap olunmuş Özbəkistanla bağlı publisistik məqalələrdən ibarət kitaba Şeyxülsilam A.Paşazadə Ön söz yazıb. Kitab Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin noyabr ayında Bakıya səfəri zamanı Akif Azalp (Bağırov) tərəfindən şəxsən Özbəkistan Prezidentinə təqdim olunub.

**AYB.az**

